

## RAFİQ AKİF

*Rafiq Akif - Rafiq Akif oğlu Məmmədov 1 FEVRAL 1962-ci ildə İsmayıllı rayonunun Mollaisaqlı kəndində anadan olub. Həmin ildə atasının təyinatıyla əlaqədar Göyçay şəhərinə köçüblər. Orta təhsilini Göyçay şəhər 1 (indiki 9 nömrəli) orta məktəbində alıb. Əsgəri xidmətini Qazaxıstan ərazisində yerləşən Sovet Ordusunda keçib. Hərbi xidmətdən sonra bir müddət Rusiyanın Tver vilayətinin Kimrı şəhərində yaşayıb, elə ali təhsilini də orada alıb.*
*1993-cü ildən Bakıda yaşayır.*
*1978-ci ildən şeirləri ilə mətbuatda çap olunur, iki kitab müəllifidir.*
*Rafiq AKİFİ doğum günü münasibətilə təbrik edir və şeirlərindən bir neçəsini oxuculara çatdırırıq.*

### APAR MƏNİ

Deyirlər ki, uzaq yerdə həyat var,
Orda şəri, vay-şüvəni yel qovar.
Burda bezdim ağlamaqdan, yerim dar,
Allah, bəsdir, qara günüm ta yetər,
Apar məni o vüsalın dalınca.

Deyirlər ki, var orada bir dəniz,
Salır şölə dalğasına ay bəniz.
Burda qalsam darıxacaq ay mənsiz,
Məşəqqətli ömür sürdüm, can itər,
Apar məni o vüsalın dalınca.

Deyirlər ki, orda ömür okean,
Coşan dərya sevgi dolu bir ümman,
Möcüzədir nə qaçan yox, nə qovan,
Burda qalsam dərd üstünə dərd bitər,
Apar məni o vüsalın dalınca.

Bir vaxt vardı cavan, xöşbəxt, şən idim,
Bu dünyada çoxlu cəfa, qəm yedim.
Bu həsrətdən o vüsala qoy gedim,
Bilməzdim ki, sevinc məndən yan ötər,
Apar məni o vüsalın dalınca.

Xam xəyalın uğrunda çox gəzmişəm,
Ağır dərdin acısına dözmüşəm.
İllər ötüb öz bəxtimdən küsmüşəm.
Payız düşüb bu sevdanı çən örtər,
Apar məni o vüsalın dalınca.

### ATACAN

Atacan, əkdiyin ağacdan, güldən,
Gətirib mən əkdim məzar başına.
Ürəyim yaralı, gözlərim yaşlı,
Yazdım xatirəmi bu başdaşına.

O gündən yanında ucalır küknar,
Salır budaqların sənin üstünə.
Qoruyur vəfalı keşikdə durur,
Bədnəzər sifətlər dursa qəsdinə.

Atacan, bilirsən sən ölən gündən,
Daha bu yollarda bitib qalmışam.
Mənasız görsənir bu həyat mənə,
Saçıma dən düşüb tez qocalmışam.

Soyuq məzarını qucaqlayıram,
Dərdimi, sevinci bölürəm sənlə.
Fələyin hökmüylə barışammıram,
Hər dəfə dirilib ölürəm sənlə...

Məzarın yanında yetişən güllər,
İçib göz yaşımdan boy-buxun atıb.
Mənə təsəllini indi kim verər?
Ürək ağrıları gün-gündən artıb.





Küknar budaqları dəyir üzümə,
Məni ovundurur "Ağlama" deyir.
"Öləni bir daha qaytarmaq olmur,
Ürəyi sən üzüb, dağlama" deyir.

Bəlkə də, qəbirdə göyərir ruhun,
Çəməndə göyərən bahar gülütək.
Sənin bu dünyada varlığın, yoxun,
Bənövşə ömrüymüş, solmuş bir çiçək.

Fəqət, neynim, taqət itib. Qocalıq,
Bivaxt gəlib, heç sağalmaz dərd ilə.
Bəsdir dözdüm, qoy qurtarsın ayrılıq,
Ata, gəlim sən yanında yer elə.

### ANA ÜMÜDÜ

*(1941-1945-ci illərdə, Böyük Vətən müharibəsində ərini və yeganə balası Dəmir müəllimi itirmiş Şahxanım nənəyə ithaf)*

Gəldi qara xəbər oğlundan bir vaxt,
Övlad ölümünə o inanmadı.
İllər keçdi o qadalı illərdən,
Oğul gözləməkdən o usanmadı.

İndi aralığa söhbət düşəndə,
"Mənim də böyük bir oğlum var" deyir.
Nisgili xəyal olub ötüşəndə,
Röyadan gördüyün bizə söyləyir.

Həyata sevgisi, son təsəllisi,
Ömür-gün yoldaşı, bir oğlu vardı.
Üzdü oğul dərdi. Məlhəm çarəsin,
Sevincin, pənahın dava apardı.

Saralıb ağladı, yol kənarında,
Gözü yolda qaldı, fikri uzaqda.
Gecələr qovuşdu xəyallarında,
Gündüzlər süzüldü sellər yanaqda.

Tükəndi göz yaşı, kor oldu gözlər,
Sönmədi ümüdü ölənə kimi.
Qabar oldu dili, tükəndi sözlər,
Fələk nəsib etmiş bəxtinə qəmi.

“Məni məzarlıqda yol qırağında,
Basdırın!” Qəhərlə etdi vəsiyyət.
“Əgər qayıdası olsa nə vaxtsa,
Oğlumla görüşmək olar, ya qismət!”

Əcəl yetdi, ana köçdü həyatdan,
Dəmir ümüd imiş yaşadan onu.
Dözməzdi hər ana, ölərdi o an,
Əgər itirsəydi bircə oğlunu.

### DAĞLARIN DA DƏRDİ VARMIŞ

Yollarımda dağlar varmış,
Zirvələri soyuq qarmış,
Xısın-xısın ağlayarmış.
Demə, dünya ona darmış,
Dağların da dərdi varmış.

Sinəsini duman alıb,
İgidləri darda qalıb,
Fəryadı göyə ucalıb,
Hicran odu qəlbin yarmış,
Dağların da dərdi varmış.

Qərib düşmüş bir dağ gördüm,
Saçlarını düm ağ gördüm,
Ürəyini dağ-dağ gördüm,
Tale yaman dərdə salmış,
Dağların da dərdi varmış.

Dağlar boynun niyə əyib,
Şux xətrinə kimlər dəyib,
Qəriblikdən bax, kövrəlib,
Dağ da küsər, qocalarmış,
Dağların da dərdi varmış.

Dəlidağın niyə coşmur,
Üsyan edib niyə daşmır,
"Dəlilərə"cəngi qoşmur,
O vüqarın harda qalmış,
Dağların da dərdi varmış.

### DƏMİRÇİ

Dəmirçi deyib özünü,
Nahaq yerə öymə belə.
Yaratdığın qılınclardan
Razı olma insan ölə.

Düzəltdiyin bu qılınclar
Neçə başlar yaracaqdır.
Qüdrətini, millətimi
Yavaş-yavaş qıracaqdır.

Etibar yox bu dövrana,
Keçər gündə dondan-dona.
Qılınc düşsə bir nadana
Boynunu bil vuracaqdır.

Böyük ulu çinarlar ək,
Bu sənəti burax getsin.
Gün əlindən qorunmağa
Köməyinə hər an yetsin.

Sən arpa ək, bol taxıl ək,
Qoy bol olsun daim çörək.
Oraq, dəryaz, kotan düzəlt,
Baltaların, qılıncların
Qəzəbinə tuş gəlməyək.

Ulu tanrım, ey yaradan,
Bəs deyilmi tökülən qan?
Var-dövlətə həris edib,
Çıxarma sən insanlıqdan.

## DƏRD

Ömür şirin, həyat gözəl,
Uşaqlıqda duydum bunu.
Yalan imiş, sonu xəzəl,
Dərk etmədik oyununu.

Dərdlə qoşa, ekiz doğub,
Demə məni doğan ana.
Ondan uzaq dolaşsamda,
Tapıb, basır ağuşuna.

Ürəyimdə yuva qurdu,
Kürəyimə şələsini.
Gülə-gülə elə boğdu,
Yanan qəlbin naləsini.

Bütün dərdin son mənzili,
Son rahatlıq ölümdə var.
Hara kimi zülmün seli?
Bilmirsən ki, ölüm də var?!

Öldürməyə əlim gəlməz,
Axı ekiz qardaşımdır.
Məndən başqa ünvan bilməz,
Öləndə də baş daşımdır.

## EŞQ DEYİLMİ?

Sən gedəni yetim qalıb xatirən,
Bəslədiyin, olduğun yer boş qalıb.
Kimsəsiz ümmanda batır bir yelkən,
Hörümçəklər viran qoyub, tor qurub.

Sənlə yatan sənlə durur hər səhər,
Hərdən şirin, şəkər röyam da olur.
Zalım həsrət salır ağrıdan yəhər,
Yalquzaq ömrümü çöllərə qovur.

Bəlkə gəlib sahmana sal içimi,
Doldurasan o boşluğu özünlə.
Heç kimin sözü güldürmür üzümü,
Ovut qəlbi bir "əzizim" sözünlə.

Biləydin kaş, içim necə göynəyir?!
Gündüz solan dərdim gecə göynəyir.
Canda qəbir yanır, can sızıldayır,
Gecələr yalquzaq tənha ulayır.

Gedərdim baş alıb hayana desən,
Səni yalqız qoyub getməz ayağım.
Nə yaxşı eşqimdə hələ də varsan,
Bir vaxt yarım olan gecə qonağım.

Yetim düşür küçələrim hər axşam,
Qəribsəyib doğmalaşır hər səhər.
Ömür ayrıcında naçar qalmışam,
Necə başa vurum ömrü bir təhər?

Sən gedəni yetim qalıb xatirən,
Bu canı da yandırıram şam kimi.
Bir ahım var səmalara yüksələn,
Külü yandırırsa bu eşq deyilmi?

## SƏNİN GÖZLƏRİNDƏ

Sənin gözlərində gördüm nələri?
Şaqqıldayıb çaxdı güclü ildırım.
Sənin gözlərində coşan nifrətlə,
Qayalar qıy vurdu, aşdı sıldırım.

Baxışın qəzəbli dənizə bənzər,
Bəzən təlatümlü, bəzən də həlim.
Nə vaxtdır mən sənsiz qəribsəmişəm,
Pərişan telinə dəyməyir əlim.

Kiminləsə sən danışıb güləndə,
Qısqanıb kəsirdim mən sizin yolu.
Təksən nəzərimdə ağıllı, sadə,
Mən nəzərində "Qara tikan kolu".

Xəyalımda sənə açdığım ürək,
Görəndə hər dəfə dil topuq vurdu.
Hicranım neyləsin özüm günahkar,
Qorxaqlıq araya sərhədlər hördü.

Sənin nəm gözlərin sehirli güzgü,
Mən orda gördüm bütün səhvimi.
Gecikdim eşqimdə, məncə düzgündür,
Qoruya bilmədim məhəbbətimi.